# ƏSGƏROVA SALATIN ƏZİZ QIZI



Əsgərova Salatın Əziz Qızı 1961-ci il dekabrın 16-da Bakıda ziyalı ailəsində doğulmuşdur. 1979-cu ildə Bakı şəhəri M.Müşfiq adına 18 saylı orta məktəbi əla qiymətlərlə başa vurmuşdur. Salatın elə həmin il Azərbaycan Neft və Kimya İnstitutuna daxil olur. Mühəndis diplomu olsa da, ədəbiyyata olan həvəsi onu jurnalistika aləminə yönəldir. O, əvvəlcə qələmini ştatdankənar müxbir kimi sınayır. Sonra “Baku” və “Molodyoj Azerbaydjana” qəzetlərində həyatımızın ən vacib problemlərindən bəhs edən mövzularda çıxışlar etməyə başlayır. Ermənilərin Azərbaycan torpaqlarına təcavüzə başladığı dövrdə həm cəsarəti, həm içindəki millət yanğısı, ədalətsizliyə qarşı olan müqavimət hissi Salatını cəbhə bölgəsinə tez-tez aparırdı. Torpaqlarımızın bütövlüyü onun yazılarının başlıca mövzularına çevrilmişdi. Dəfələrlə ölümlə üz-üzə gəlsə də, o yolundan dönmür. S.Əsgərova 1991-ci il yanvarın 9-da Laçından Şuşaya yollanarkən yolun altıncı kilometrliyindəki Qaladərəsi kəndi yaxınlığında Ermənistan Silahlı Qüvvələri əsgərlərinin mühasirəsinə düşüb, onun olduğu maşın yaxın məsafədən şiddətli atəşə tutulub. Tanınmış jurnalist, “Molodyoj Azerbaydjana” qəzetinin əməkdaşı Salatın Əsgərova vəhşicəsinə qətlə yetirilir. Qətlindən bir neçə gündən sonra Bakıya gətirilərək Bakı şəhərinin Şəhidlər xiyabanında dəfn edilmişdir. Ailəli idi. Bir oğlu yadigar qalıb. Azərbaycan Respublikası prezidentinin 6 noyabr 1992-ci il tarixli 294 saylı fərmanı ilə Əsgərova Salatın Əziz qızına ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adı verilmişdir. Bakı şəhərində adına küçə var. Bakı buxtasındakı gəzinti kateri onun adını daşıyır. “Təfəkkür” Universitetində büstü qoyulmuşdur. Yaşadığı binaya barelyefi vurulmuşdur. Yaxınlığında həlak olduğu kənd “Salatınkənd” adlanır (Hazırda işğal altındadır).